RESPUBLİKA 11 noyabr 2018-ci il

# Xalq şairi Nəriman Həsənzadənin yaradıcılıq gecəsi



**Şair və yazıçıların, mədəniyyət və təhsil işçiləri və KİV nümayəndələrinin iştirakı ilə Sabunçu rayonunun "Savalan" qəsəbəsində yerləşən 28 nömrəli tam orta məktəbdə Azərbaycan xalqının sevimlisi, Xalq şairi Nəriman Həsənzadənin yaradıcılıq gecəsi"nə həsr olunmuş tədbir keçirildi.**

Tədbirdə çıxış edən məktəbin direktoru, təhsil fədaisi, filologiya üzrə fəlsəfə doktoru Qənirə Əmircanova ilk olaraq tədbir iştirakçılarına onu xatırlatdı ki, bizim müəllim və şagirdlərin iki ay olar ki, istifadəsinə verilmiş bu təhsil ocağı ölkə başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü və onların xeyirduası ilə tikilib istifadəyə verilmişdir. Savalan qəsəbəsində yaşayan valideynlər, müəllim və şagirdlər adından ölkə başçısı cənab İlham Əliyevə və onun xanımı Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Məktəbimizdə keçirilən bu ilk tədbiri Azərbaycanın Xalq şairi, dünyada tanınmış, sevilib-seçilən və qəlblərdə dərin iz qoymuş çox hörmətli şairimiz "Nəriman Həsənzadənin yaradıcılıq gecəsi"nin işığına toplaşmışıq. Nəriman müəllimin şeirləri, onun şeirlərinə bəstələnmiş mahnılar xalqımız tərəfindən çox sevilir və yüksək qiymətləndirilir. Nəriman müəllim hər bir kəsin, hər bir oxucusunun dilindən düşməyən, çox sevilən şairdir, istedadlı nasirdir, bununla belə, çox sadə və incəqəlbli bir insandır. Azərbaycan üçün yazıb-yaradan, vətənpərvər bir şairdir. O bir insan kimi dostluğa da, etibarlı və sədaqətli insandır. Şair o zaman yaşayır ki, onun əsərləri, yaradıcılığı xalq tərəfindən sevilir və yüksək qiymətləndirilir. Nəriman Həsənzadə belə şairlərimizdəndir. Ona cansağlığı, böyük yaradıcılıq uğurları arzulayırıq. Xalq şairinin yaradıcılıq gecəsi həm də Bayraq Günü ilə eyni vaxta düşdü. Nəriman müəllim həm də millətini və bayrağını sevən şairdir. Şübhə etmirəm ki, torpaqlarımız uzun müddət əsarətdə qala bilməz. Prezidentimizin ətrafında birləşən xalqımız qalib olaraq bayrağımız o torpaqlarda dalğalandıracaq.

Söz Xalq şairi Nəriman Həsənzadəyə verildi:

—O kiçik yaşlarından gördüklərini, boya-başa çatdığı Qazax mahalının Poylu kəndi ilə bağlı acılı-şirinli xatirələrini danışdı. Sonrakı təhsil illərində əldə etdiyi uğurlardan, çətinliklərdən söhbət açdı. Bu çətin yollarla addımlayarkən qarşısına çıxan xeyirxah insanlardan — yazıçı Mirzə İbrahimov, Mir Cəlal Paşayev və Teymur Əhmədovun adlarını xatırlatdı. Çox xoşbəxtəm ki, bu gün xeyirxah insanların sayəsində bu zirvəyə çatmışam.

Ulu öndərimiz Heydər Əliyev şair və yazıçıları, yaradıcı adamları çox sevir və onlara daimi diqqət göstərirdi. Onun xalqımız qarşısında xidmətləri çox böyükdür. Onun "Azərbaycan dünyaya günəş kimi doğacaq" kəlamı ilə tərənnüm etdiyi müstəqil Azərbaycan dünyanın ən qabaqcıl dövlətləri ilə bir sırada inamla addımlayır. Müstəqil Azərbaycanımızda oxumaq da, işləmək də, yaşamaq da gözəldir. Gəlin, hər birimiz öz işimizlə, bilik və bacarığımızla bu uğurların sönməsinə imkan verməyək.

Xalq şairi Nəriman Həsənzadə iştirakçılara yaradıcılığından söhbət açdı. Ayrı-ayrı vaxtlarda yazdığı şeirlərini oxudu. Onun yaradıcılıq gecəsini təşkil edən məktəbin direktoru Qənirə Əmircanovaya, bu məqsədlə zəhmət çəkən müəllim və şagirdlərə minnətdarlığını bildirdi.

Tədbirə qatılan Afət xanım Bakıxanova, Bela Cəlilova və jurnalist Məhəmməd Vəliyev və başqaları Xalq şairi Nəriman Həsənzadə haqqında yüksək fikirlər söylədilər və şairə uzun ömür və yaradıcılıq uğurları arzuladılar.

Məktəbin şagirdləri şairin poemalarından hazırladıqları kiçik səhnəciklər göstərdilər, şeirlər səsləndirdilər, şairin şeirlərinə bəstələnmiş mahnılar ifa etdilər. Bununla da, Xalq şairi Nəriman Həsənzadənin yaradıcılıq gecəsi yaddaşlarda dərin iz qoyan xatirəyə çevrildi.

**Məhəmməd VƏLİYEV,**
**Əli SADIQOV,**
**"Respublika".**
**S.MƏMMƏD (foto).**